**Hacı Firudin Süleymanoğlu**



# HABİL ÇALANDA...

***Habilin ifasında kamanı dinləyəndə sanki əsrlər üstünə gəlir, ululların səsini eşidirsən...***

***Müəllifdən***

***O gecə deyəsən şər qarşısında***
***Damcılı Bulaqda Habil çalırdı...***

***Əli Kərim***

O gecə sükuta dalmışdı dünya,
Bulaq da susurdu, dəniz də belə,
Bir ulu heyrətdə qalmışdı dünya,
Çay da tərpənmirdi, kəhriz də belə -
Habil çalanda...

O ilkin çağına dönmüşdü aləm,
Dağlar da, düzlər də bir başqa idi.
Çiçəklər baxırdı gözlərində nəm,
Dünyanın xoşbəxti qarışqa idi -
Habil çalanda...

Xəyalım gəzirdi göyün üzündə,
Ürəyim cənnətdə gün axtarırdı.
Bozart çırpınırdı namərd əlində,
Qaçıb qurtarmağa yol axtarırdı -
Habil çalanda...

Sükutda bir haray, harayda sükut...
Necə tamamlayır biri birini.
Bədi, bədxahları biryolluq unut,
Bəlkə tapa bildin əzizlərini -
Habil çalanda...

O gecə Habilin əlində kaman,
Mənimsə qəlbimdə başsız duyğular,
Axıb getdiyinə zaman peşiman,
Çıxıb gəldiyinə sevinənlər var -
Habil çalanda...

Habilin kamanı dizləri üstə...
Habilin kamanı düşsə əlindən
Onda qiyamətin özünü gözlə,
Sonra gələnlərə nə deyərəm mən?..
Habil çalanda...